İRƏLİ
İCTİMAİ BİRLİYİ

**“İRƏLİ” İctimai Birliyi**
İstiqlaliyyət küç., 31
E-poçt: ireli@ireli.az
Veb-sayt: www.ireli.az

№ 05-09 Tarix 07/09/2022

**“Yeni Çağ” Media Qrupunun rəhbəri**
**cənab Aqil Ələsgərə**

**Hörmətli Aqil Ələsgər,**

“İrəli” İctimai Birliyi olaraq fəaliyyətimiz müddətində bir sıra media qurumları ilə sıx əməkdaşlıq etmişik ki, bunlardan biri də “Yeni Çağ” Media Qrupudur. Qurum fəaliyyət göstərdiyi müddət ərzində Azərbaycan və dünyada baş verən ictimai, siyasi, sosial hadisələri qərəzsiz, operativ şəkildə oxucuya çatdırmağı bacarıb.

Yaradılmasının 15 illik yubileyini qeyd edən “Yeni Çağ” Media Qrupu hazırda müxtəlif sahələrdən bəhs edən peşəkar müsahibə, təhlil, reportaj, müəllif yazıları ilə izləyicilərin qarşısına çıxır. Qeyd edək ki, “İrəli” İctimai Birliyinin həyata keçirdiyi fəaliyyətlərə də öz dəstəyini göstərən “Yeni Çağ” gənclərin bu kimi informasiyalarla mütəmadi təmin olunmasında mühüm rol oynayır.

İnanırıq ki, bundan sonra da, “Yeni Çağ” Media Qrupu ilə tərəfdaşlığımız uğurla davam edəcək, dövlət gənclər siyasətinin ölkəmizin dörd bir regionunda daha da səmərəli şəkildə həyata keçirilməsi işində “Yeni Çağ” öz informasiya dəstəyini əsirgəməyəcək.

**Hörmətli Aqil müəllim,**

“Yeni Çağ” Media Qrupunun yaradılmasının 15-ci ildönümü münasibətilə Sizi və rəhbərlik etdiyiniz qurumun kollektivini ürəkdən təbrik edir, əməkdaşlığımızın inkişafı naminə fəaliyyətlərinizdə uğurlar arzu edirəm.

AZƏRBAYCAN RESPUBLİKASI “İRƏLİ” İCTİMAİ BİRLİYİ İRƏLİ İCTİMAİ BİRLİYİ “İRƏLİ” PUBLIC UNION AZERBAIJAN REPUBLIC

**Hörmətlə,**
**“İrəli” İctimai Birliyinin sədri**
**Şahin Rəhmanlı**